# "Yenilənən məktəblər"

## Xaçmaz rayonu Palçıqoba kənd tam orta məktəbi

Hər il növbəlilik və prioritetlik prinsipi əsasında təhsil müəssisələrinin təmiri və tikintisi həyata keçirilir. 2018-2024-cü illər ərzində ölkə üzrə 104 təhsil müəssisəsi tikilərək istifadəyə verilib.

61 təhsil müəssisəsində əsaslı təmir, 4000-dən artıq təhsil müəssisəsində cari təmir işləri həyata keçirilib.

Bundan başqa, 2017-2022-ci illər ərzində 414 modul tipli məktəb quraşdırılaraq təhvil verilib.

"Azərbaycan müəllimi" məktəb infrastrukturunun təkmilləşdirilməsi istiqamətində aparılan işlərlə bağlı ictimaiyyəti məlumatlandırmaq üçün "Yenilənən məktəblər" adlı yeni rubrikaya start verir.

Rubrika çərçivəsində ilk olaraq Xaçmaz rayon Palçıqoba kənd tam orta məktəbi haqqında məlumatı təqdim edirik:

Məktəbin inşasına 2021-ci ildə start verilib və 2024-cü ildə açılışı olub.

İkimərtəbəli məktəb binası 360 şagird yerlikdir. Təhsil müəssisəsində 7 ibtidai sinif, 1 məktəbəhazırlıq, 8 digər sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, kitabxana, informatika otağı, hərbi hazırlıq otağı, 2 texnologiya otağı, rəsm otağı, müəllimlər otağı, 184 yerlik akt zalı, idman zalı, yeməkxana, direktor otağı, tibb otağı və 3 direktor müavini otağı mövcuddur.

Məktəbin ümumi sahəsi təxminən 22 min kv. metrdir.







## Bərdə rayonu Alpoud kənd tam orta məktəbi

Ötən il tikintisi başa çatdırıldıqdan sonra istifadəyə verilmiş daha bir təhsil müəssisəsi Bərdə rayonu Nazim Hüseynov adına Alpoud kənd tam orta məktəbidir.

Məlumat üçün bildiririk ki, Alpoud kənd tam orta məktəbinin yeni binasının inşasına 2023-cü ilin oktyabrında start verilib və 2024-cü ilin sentyabrında tikinti işləri başa çatdırılıb.

Məktəb 264 şagird yerlikdir. Təhsil müəssisəsində 11 sinif otağı, 1 məktəbəhazırlıq otağı, 2 laboratoriya, 2 əmək otağı, 1 informatika, 1 hərbi hazırlıq kabineti, kitabxana, akt zalı, yeməkxana, idman zalı var.







## İmişli rayonu Yalavac kənd tam orta məktəbi

Ötən il əsaslı təmir və bərpa-gücləndirilmə işləri aparılan məktəblərdən biri də 624 şagird yerlik İmişli rayonu İ.Səfərov adına Yalavac kənd tam orta məktəbidir.

Qeyd edək ki, Yalavac kənd tam orta məktəbində əsaslı təmir işlərinə 2024-cü ilin yanvarın 1-də başlanılıb, sentyabrın 10-da işlər yekunlaşdırılıb.

Tədris ocağında 19 sinif otağı, 1 məktəbəhazırlıq sinfi, 3 laboratoriya, 2 əmək otağı, informatika, hərbi hazırlıq kabinetləri, kitabxana, akt zalı, yeməkxana və idman zalı mövcuddur.




